**Gülgün Əşrəf qızı YUSİFOVA**
Azərbaycan Dillər Üniversiteti, Ümumi dilçilik, müəllim
E-mail: gulgun.yusifova@adu.edu.az
ORCID ID: 0009-0004-9504-4870

# TƏHLÜKƏDƏ OLAN DİLLƏR: QLOBALLAŞMA ŞƏRAİTİNDƏ SOSİAL-LİNQVİSTİK PROBLEMLƏR VƏ QORUNMA STRATEGİYALARI

**Xülasə**

Müasir qloballaşma şəraitində dillərin qorunması və dil müxtəlifliyinin saxlanılması dilçilik elminin ən aktual problemlərindən biri kimi çıxış edir. Təhlükədə olan dillər yalnız kommunikasiya vasitəsi deyil, həm də mədəni irsin, milli identikliyin və tarixi yaddaşın daşıyıcısı kimi mühüm əhəmiyyət kəsb edir. Məqalədə təhlükədə olan dillərin nəzəri əsasları, onların sosial-linqvistik problemləri və qorunma yolları kompleks şəkildə təhlil olunur. Araşdırmada dil itkisinə təsir edən əsas amillər – qloballaşma, urbanizasiya, sosial status fərqləri və nəsillərarası ötürülmənin zəifləməsi geniş şəkildə izah edilir. Eyni zamanda, dil müxtəlifliyinin azalmasının mədəni və sosial nəticələri müəyyənləşdirilir.Məqalədə UNESCO-nun dillərin yaşama dərəcəsinə dair təsnifatı əsasında dillərin müxtəlif təhlükə səviyyələri araşdırılır və bu təsnifatın dil siyasəti üçün əhəmiyyəti vurğulanır. Bundan əlavə, təhlükədə olan dillərin qorunması və bərpası istiqamətində müasir yanaşmalar – təhsil siyasəti, rəqəmsal texnologiyalar, media vasitələri və icma təşəbbüsləri sistemli şəkildə təhlil edilir. Xüsusilə süni intellekt və rəqəmsal platformaların az resurslu dillərin qorunmasında oynadığı rol qeyd olunur.Tədqiqat nəticəsində müəyyən edilir ki, dillərin qorunması yalnız elmi yanaşmalarla deyil, həm də dövlət siyasəti, ictimai dəstək və texnoloji imkanların inteqrasiyası ilə mümkün olur. Bu baxımdan dil müxtəlifliyinin qorunması qlobal mədəni davamlılığın təmin edilməsində mühüm strateji istiqamət kimi qiymətləndirilir.

**Açar sözlər:** təhlükədə olan dillər, dil itkisi, dil müxtəlifliyi.

**UOT:** 81'27: 81'242
**JEL:** Z13
**DOI:** https://doi.org/10.54414/AIMF6797

## Giriş

Müasir qloballaşma dövründə dillərin taleyi dilçilik elminin ən aktual problemlərindən biri kimi çıxış edir. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın tarixi yaddaşını, mədəni irsini və milli identikliyini daşıyan mühüm sosial fenomendir. Bu baxımdan dillərin yox olması və ya təhlükə altına düşməsi təkcə linqvistik deyil, həm də sosial-mədəni və antropoloji problem kimi qiymətləndirilməlidir. Qloballaşma prosesləri, urbanizasiya, miqrasiya və dominant dillərin təsirinin artması nəticəsində dünyada bir çox dillər tədricən istifadə dairəsini itirir və nəsildən-nəslə ötürülmə prosesi zəifləyir.

Dil itkisi problemi xüsusilə kiçik etnik qrupların yaşadığı mühitlərdə daha qabarıq şəkildə özünü göstərir. Belə dillər sosial funksiyalarını itirdikcə onların gündəlik ünsiyyətdə istifadəsi azalır və nəticədə həmin dillər “təhlükədə olan dillər” kateqoriyasına daxil edilir. Tədqiqatlar göstərir ki, dil müxtəlifliyinin azalması yalnız kommunikativ imkanların məhdudlaşması ilə nəticələnmir, həm də mədəni müxtəlifliyin zəifləməsinə səbəb olur. Bu isə bəşəriyyətin ümumi intellektual və mədəni potensialına mənfi təsir göstərir [8, s.302].

Müasir elmi yanaşmalarda dil itkisi əsasən çoxfaktorlu proses kimi izah olunur. Sosial-iqtisadi dəyişikliklər, təhsil sistemində

dominant dillərin üstünlüyü və texnologiyaların geniş yayılması yerli və azsaylı dillərin sıxışdırılmasına gətirib çıxarır [2, s.72]. Eyni zamanda, qloballaşmanın yaratdığı yeni kommunikasiya mühiti dil siyasətinə və dil planlaşdırmasına yeni yanaşmalar tələb edir [4, s.44]. Bu kontekstdə dillərin qorunması yalnız dövlət siyasəti deyil, həm də ictimai və elmi fəaliyyət sahəsi kimi aktuallaşır.

Beynəlxalq tədqiqatlar da göstərir ki, dünyada minlərlə dil yox olmaq təhlükəsi ilə üz-üzədir və bu proses sürətlə davam edir. Məsələn, dilin yaşama qabiliyyətinə təsir edən amillər kompleks şəkildə araşdırılaraq risk faktorlarının sosial, demoqrafik və mədəni aspektləri müəyyən edilmişdir [6, s.80]. Eyni zamanda, ekoloji və sosial sahələrdə aparılan tədqiqatlar dil baryerlərinin müxtəlif sahələrdə, o cümlədən təbiətin qorunmasında belə ciddi nəticələrə səbəb olduğunu ortaya qoyur.

Son illərdə texnologiyanın inkişafı təhlükədə olan dillərin qorunması istiqamətində yeni imkanlar yaratmışdır. Süni intellekt və rəqəmsal modellər vasitəsilə az resurslu dillərin sənədləşdirilməsi və bərpası istiqamətində mühüm addımlar atılır . Bununla yanaşı, dilin bərpası prosesinin effektivliyi sosial mühit, icma dəstəyi və təhsil siyasəti ilə sıx bağlıdır.

**Təhlükədə olan dillərin nəzəri əsasları və mahiyyəti.** Dil bəşəriyyətin ən mühüm sosial-mədəni institutlarından biri olmaqla yanaşı, həm də kollektiv yaddaşın, milli kimliyin və dünyagörüşünün formalaşmasında əsas rol oynayır. Müasir dilçilikdə "təhlükədə olan dillər" anlayışı, istifadə dairəsi məhdudlaşan, nəsildən-nəslə ötürülməsi zəifləyən və gələcəkdə yox olmaq riski ilə üzləşən dilləri ifadə edir. Bu anlayış ilk növbədə dilin sosial funksionallığının azalması ilə bağlıdır. Əgər dil gündəlik ünsiyyət, təhsil və rəsmi sahələrdə istifadə olunmursa, onun yaşama qabiliyyəti ciddi şəkildə zəifləyir. Bu baxımdan, dilin yalnız mövcudluğu deyil, həm də aktiv istifadəsi onun davamlılığını müəyyən edən əsas meyardır. Qloballaşma prosesləri fonunda dominant dillərin üstünlük qazanması kiçik dillərin sıxışdırılmasına və nəticədə onların təhlükə altına düşməsinə səbəb olur [11, s.4].

UNESCO tərəfindən hazırlanmış "Təhlükədə olan dünya dilləri atlası" (Atlas of the World's Languages in Danger) dünyada nəsli kəsilməkdə olan dillərin sistemli şəkildə təsnif olunduğu mühüm beynəlxalq elmi mənbə kimi qiymətləndirilir. Bu atlas dil müxtəlifliyinin qorunması istiqamətində aparılan qlobal tədqiqatların əsas informasiya bazalarından biri hesab olunur və dillərin mövcud vəziyyətinin monitorinqi baxımından xüsusi əhəmiyyət kəsb edir. Atlas çərçivəsində müxtəlif regionlarda yaşayan dillərin vəziyyəti, onların istifadə səviyyəsi və gələcək perspektivləri haqqında geniş məlumat təqdim edilir [13].

Bu təşəbbüsün formalaşması 1992-ci ildə Kanadada keçirilmiş Beynəlxalq Dilçilər Konqresində (CIPL) nəsli kəsilməkdə olan dillər probleminin geniş müzakirəsi ilə bağlıdır. Həmin konqres çərçivəsində dillərin qorunması məsələsinin aktuallığı nəzərə alınaraq Nəsli Kəsilməkdə olan Dillər üzrə xüsusi komitə yaradılmışdır. Eyni ildə Parisdə keçirilmiş beynəlxalq toplantı isə bu problemin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm mərhələ olmuşdur. Bu görüş UNESCO-nun institusional çərçivəsində təşkil olunmuş və qlobal dil siyasətinin formalaşmasında əhəmiyyətli addım kimi qiymətləndirilmişdir [14].

Avstraliyalı dilçi Stephen Wurm-un təşəbbüsü ilə yaradılmış komitə nəsli kəsilməkdə olan dillərlə bağlı məlumatların toplanması və sistemləşdirilməsi məqsədilə xüsusi tədqiqat strukturlarının formalaşdırılmasını qərara almışdır. Bu çərçivədə Nəsli Kəsilməkdə olan Dillər üzrə Beynəlxalq Tədqiqat Mərkəzinin (ICHEL) yaradılması və əldə olunan məlumatlar əsasında UNESCO tərəfindən "Nəsli kəsilməkdə olan dillərin Qırmızı Kitabı"nın nəşri planlaşdırılmışdır. Bu təşəbbüs dillərin qorunması sahəsində elmi əsaslı yanaşmanın inkişafına mühüm töhfə vermişdir [16].

Tədqiqat mərkəzinin təşkili və fəaliyyətə başlamasında Shigeru Tsuchida mühüm rol oynamışdır. O, 1994-cü ildə Tokio Universitetində bu istiqamətdə elmi fəaliyyətə başlamış

və nəsli kəsilməkdə olan dillərlə bağlı ilkin institusional və metodoloji bazanın formalaşdırılmasına rəhbərlik etmişdir. Onun rəhbərliyi altında aparılan tədqiqatlar nəticəsində dillərlə bağlı məlumatların sistemləşdirilməsi və beynəlxalq səviyyədə yayılması mümkün olmuşdur [12].

Dillərin yaşama dərəcəsi (ing. Degree of endangerment) UNESCO tərəfindən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilir və bu qiymətləndirmə “Yox olma təhlükəsi olan dünya dilləri atlası” çərçivəsində həyata keçirilir. Bu təsnifat sistemi dillərin mövcudluq səviyyəsini, onların sosial funksionallığını və gələcək inkişaf perspektivlərini müəyyən etməyə imkan verir. UNESCO-nun yanaşmasına əsasən dillərin yaşama səviyyəsi doqquz əsas meyar üzrə qiymətləndirilir və bu meyarlar arasında ən mühümü nəsillərarası ötürülmə hesab olunur. Əgər dil valideynlərdən uşaqlara ötürülmürsə, onun yox olma riski kəskin şəkildə artır [15].

UNESCO-nun təsnifatına görə dillər müxtəlif təhlükə səviyyələrinə bölünür və bu bölgü dilin istifadə dairəsi, danışanların sayı və yaş strukturu kimi göstəricilərə əsaslanır. Cədvəl 1-də dillərin yaşaması dərəcəsinə görə əsas kateqoriyalar ümumiləşdirilmiş şəkildə təqdim olunur.

**Cədvəl 1.** Dillərin yaşaması dərəcəsinə görə təsnifatı (UNESCO).

| Status | İzah | Dil nümunələri |
|---|---|---|
| Təhlükəsiz | Dil bütün nəsillər tərəfindən aktiv istifadə olunur və nəsillərarası ötürülmə davam edir | ingilis dili, türk dili, alman dili, Azərbaycan dili, rus dili |
| Təhlükəyə davamsız | Uşaqlar dili öyrənir, lakin istifadə sahəsi məhduddur | adıgey dili, başqırd dili, belarus dili, çuvaş dili |
| Təhlükə altında | Dil uşaqlar tərəfindən artıq ana dili kimi mənimsənilmir | mokşa dili, abazin dili, korsika dili |
| Ciddi təhlükədə | Dil əsasən yaşlı nəsil tərəfindən istifadə olunur | koryak dili, nanay dili, çukot dili |
| Kritik təhlükədə | Dil yalnız yaşlı insanlar tərəfindən nadir hallarda istifadə edilir | orok dili, vod dili, tofalar dili |
| Ölü dillər | Dilin artıq canlı daşıyıcıları yoxdur | kerek dili, arman dili və s. |

Bu təsnifat göstərir ki, dilin yaşaması yalnız danışanların sayından asılı deyil, eyni zamanda onun sosial funksionallığı və nəsillərarası ötürülmə səviyyəsi ilə müəyyən olunur. Xüsusilə kritik təhlükə mərhələsində olan dillər üçün təcili qoruma tədbirlərinin həyata keçirilməsi zəruridir. Əks halda bu dillər qısa müddət ərzində tamamilə yox ola bilər. Bu baxımdan UNESCO atlası yalnız məlumat bazası deyil, həm də dillərin qorunması və bərpası üçün mühüm elmi və praktik alət kimi çıxış edir [9].

Dilçilik ədəbiyyatında təhlükədə olan dillərin müxtəlif təsnifat modelləri mövcuddur. Bu təsnifatlar əsasən dilin istifadə səviyyəsinə, danışanların sayına və nəsillərarası ötürülmə vəziyyətinə əsaslanır. Belə yanaşmalardan birinə görə dillər “təhlükə altında”, “ciddi təhlükədə” və “yox olmaq üzrə” kimi mərhələlərə bölünür. Bu mərhələlər dilin sosial funksiyalarının tədricən azalmasını və onun aktiv istifadə mühitindən çıxmasını əks etdirir. Xüsusilə gənc nəslin həmin dildən istifadə etməməsi dilin gələcək perspektivlərinin zəiflədiyini göstərən əsas göstəricilərdən biridir. Dilin canlılığı yalnız danışanların sayından deyil, həm də onun müxtəlif sosial sahələrdə tətbiqindən asılıdır. Bu səbəbdən bəzi hallarda çoxsaylı danışanı olan dillər belə funksional məhdudiyyətlər səbəbindən təhlükə altına düşə bilər [6, s.82].

Dil itkisi mürəkkəb və çoxşaxəli proses olub, müxtəlif sosial, iqtisadi və siyasi amillərin təsiri altında formalaşır. Bu prosesin əsas səbəblərindən biri qloballaşma və urbanizasiya nəticəsində insanların daha geniş kommunikasiya imkanları təmin edən dillərə üstünlük verməsidir. İnsanlar sosial və iqtisadi imkanlarını artırmaq üçün daha geniş yayılmış dilləri öyrənməyə və istifadə etməyə meylli olur, bu isə yerli dillərin istifadəsinin azalmasına gətirib çıxarır. Eyni zamanda, təhsil

sistemində dominant dillərin üstün mövqedə olması da azsaylı dillərin sıxışdırılmasına səbəb olur. Məktəblərdə və ali təhsil müəssisələrində yerli dillərin tədrisinin məhdud olması onların nəsildən-nəslə ötürülməsini zəiflədir. Dil ölümünə təsir edən digər mühüm amil sosial prestij faktorudur. Bəzi dillər cəmiyyət daxilində yüksək statusa malik olduğu halda, digərləri aşağı statuslu hesab olunur. Bu isə fərdlərin daha prestijli dillərə yönəlməsinə və öz ana dillərindən uzaqlaşmasına səbəb olur. Bundan əlavə, miqrasiya prosesləri və şəhərləşmə də dil mühitinin dəyişməsinə gətirib çıxarır. İnsanlar kənd və ya lokal mühitdən şəhər mühitinə köçdükdə daha geniş istifadə olunan dillərə adaptasiya olunurlar. Bu isə yerli dillərin gündəlik ünsiyyətdən sıxışdırılmasına səbəb olur. Dil itkisi yalnız kommunikasiya vasitəsinin itirilməsi deyil, həm də həmin dilin daşıdığı mədəni və tarixi dəyərlərin yox olması deməkdir [3, s.58].

Qloballaşma müasir dünyanın əsas xarakterik xüsusiyyətlərindən biri kimi dil mühitinə də ciddi təsir göstərir. İnformasiya texnologiyalarının inkişafı, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi və kütləvi informasiya vasitələrinin yayılması nəticəsində müəyyən dillər qlobal miqyasda dominant mövqeyə yüksəlmişdir. Bu dillər beynəlxalq ünsiyyət vasitəsinə çevrilərək digər dillərin istifadəsini məhdudlaşdırır. Nəticədə dil müxtəlifliyi azalır və bir çox dillər sıradan çıxmaq təhlükəsi ilə üzləşir. Bu proses xüsusilə kiçik etnik qrupların yaşadığı regionlarda daha sürətlə baş verir [4, s.43]. Dil müxtəlifliyinin azalması yalnız linqvistik problem deyil, həm də mədəni müxtəlifliyin zəifləməsi deməkdir. Hər bir dil özünəməxsus dünyagörüşünü, düşüncə tərzini və mədəni dəyərləri əks etdirir. Dilin yox olması həmin mədəni irsin də itirilməsi ilə nəticələnir. Buna görə də müasir dövrdə dil müxtəlifliyinin qorunması beynəlxalq səviyyədə mühüm məsələlərdən biri kimi qəbul edilir. Müxtəlif tədqiqatlar göstərir ki, dil müxtəlifliyi ekoloji və sosial davamlılıqla da sıx bağlıdır və onun qorunması qlobal inkişaf strategiyalarının tərkib hissəsinə çevrilmişdir [5, s.4].

Beləliklə, təhlükədə olan dillər problemi müasir dövrdə həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu problem dilçilik elmi ilə yanaşı, sosial elmlər, antropologiya və mədəniyyətşünaslıq sahələrinin də diqqət mərkəzindədir. Dillərin qorunması və inkişaf etdirilməsi yalnız elmi məsələ deyil, həm də bəşəriyyətin mədəni irsinin qorunması baxımından strateji əhəmiyyət daşıyır. Bu səbəbdən təhlükədə olan dillərin öyrənilməsi və onların qorunması istiqamətində kompleks yanaşmaların tətbiqi zəruri hesab olunur [12, s. 6].

**Təhlükədə olan dillərin sosial-linqvistik problemləri.** Müasir dövrdə təhlükədə olan dillərin sosial-linqvistik problemləri qloballaşma, urbanizasiya və sosial dəyişikliklərin təsiri altında formalaşan kompleks proses kimi xarakterizə olunur. Dil və cəmiyyət arasındakı qarşılıqlı əlaqə bu problemlərin əsasını təşkil edir. Belə ki, cəmiyyətin sosial-iqtisadi inkişaf istiqamətləri dəyişdikcə dillərin funksional yükü də dəyişir. Dominant dillərin iqtisadi və kommunikativ üstünlüyü nəticəsində kiçik dillər tədricən gündəlik istifadədən sıxışdırılır və yalnız məhdud sosial mühitdə mövcudluğunu qoruyur. Xüsusilə gənc nəslin daha geniş imkanlar təmin edən dillərə üstünlük verməsi nəsillərarası dil ötürülməsinin zəifləməsinə gətirib çıxarır ki, bu da dilin yaşama qabiliyyətini ciddi şəkildə təhlükə altına alır [3, s.58].

Sosial-linqvistik problemlərin digər mühüm aspekti dillərin sosial status fərqləridir. Bəzi dillər yüksək prestijə malik olduğu halda, digərləri aşağı statuslu qəbul edilir və bu vəziyyət fərdlərin dil seçimlərinə birbaşa təsir göstərir. Nəticədə insanlar daha çox sosial və iqtisadi üstünlük verən dillərə yönəlir, ana dilindən isə uzaqlaşırlar. Bu proses uzunmüddətli perspektivdə dil assimilyasiyasına və mədəni identikliyin zəifləməsinə səbəb olur. Dil itkisi yalnız kommunikasiya vasitəsinin itirilməsi deyil, həm də həmin dilə bağlı olan mədəni dəyərlərin və ənənələrin yox olması deməkdir. Müasir informasiya texnologiyalarının sürətli inkişafı da dil mühitinə təsir göstərir. İnternet və rəqəmsal platformalarda əsasən dominant dillərin istifadə olunması azsaylı dillərin informasiya məkanından kənarda qalmasına səbəb olur. Bu isə həmin

dillərin funksional imkanlarını daha da məhdudlaşdırır və onların gələcək inkişaf perspektivlərini zəiflədir. Digər tərəfdən, sosial siyasət və təhsil sistemində yerli dillərin kifayət qədər dəstəklənməməsi də dil itkisi prosesini sürətləndirən əsas amillərdəndir [5, s.4].

Müasir dövrdə qloballaşma, urbanizasiya və rəqəmsallaşma prosesləri bir çox dillərin mövcudluğunu ciddi şəkildə təhdid edir. Xüsusilə azsaylı xalqlara məxsus dillər sosial, iqtisadi və texnoloji təsirlər nəticəsində istifadədən kənarda qalır. Təhlükədə olan dillərin əsas sosial-linqvistik problemləri sırasında dil itkisi, sosial status fərqi, nəsillərarası ötürülmənin zəifləməsi, texnoloji təsir və mədəni assimilyasiya xüsusi yer tutur. Bu problemlər dillərin kommunikativ funksiyasını zəiflətməklə yanaşı, onların gələcək nəsillərə ötürülməsi imkanlarını da məhdudlaşdırır. Aparılmış tədqiqatlara əsasən müəyyən edilmişdir ki, xüsusilə gənc nəslin ana dilindən uzaqlaşması və dominant dillərin rəqəmsal mühitdə üstün mövqedə olması dilin informasiya məkanından sıxışdırılıb çıxmasına səbəb olur. Təhlükədə olan dillərin əsas sosial-linqvistik problemləri və onların nəticələri cədvəl 2-də təqdim edilmişdir

**Cədvəl 2.** Təhlükədə olan dillərin əsas sosial-linqvistik problemləri.

| Problemin adı | Mahiyyəti | Nəticəsi |
|---|---|---|
| Dil itkisi | Dilin istifadə dairəsinin daralması | Dilin yox olması |
| Sosial status fərqi | Dillərin prestij baxımından fərqlənməsi | Kiçik dillərin sıxışdırılması |
| Nəsillərarası ötürülmə zəifliyi | Gənclərin dili istifadə etməməsi | Dilin davamlılığının pozulması |
| Texnoloji təsir | Rəqəmsal mühitdə dominant dillərin üstünlüyü | Dilin informasiya məkanından çıxması |
| Mədəni assimilyasiya | Ana dilindən uzaqlaşma | Mədəni kimliyin zəifləməsi |

**Mənbə:** [12, s.6] əsasında tərtib edilmişdir.

Beləliklə, təhlükədə olan dillərin sosial-linqvistik problemləri çoxşaxəli xarakter daşıyır və onların həlli yalnız dilçilik çərçivəsində deyil, həm də sosial, təhsil və texnoloji siyasətlərin inteqrasiyası vasitəsilə mümkün olur.

Bu problemlərin aradan qaldırılması üçün kompleks və çoxsəviyyəli yanaşma tələb olunur. İlk növbədə, dilin sosial funksionallığının artırılması vacibdir. Dil yalnız ailə və məişət mühitində deyil, həm də təhsil, media və ictimai həyatın digər sahələrində aktiv şəkildə istifadə olunmalıdır. Bu məqsədlə ana dilində təhsilin genişləndirilməsi, yerli dillərdə dərslik və tədris resurslarının hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, dilin məktəb mühitində istifadəsi onun nəsildən-nəslə ötürülməsini gücləndirən əsas amillərdən biridir [1, s.16]. Dilin sosial nüfuzunun artırılması da mühüm məsələlərdəndir. Əgər cəmiyyət daxilində müəyyən dil aşağı statuslu hesab edilərsə, onun istifadəsi tədricən azalır. Buna görə də dilə münasibətin dəyişdirilməsi, onun mədəni dəyərinin və identiklik formalaşdırmadakı rolunun təbliği vacibdir. Bu istiqamətdə kütləvi informasiya vasitələri, sosial şəbəkələr və mədəni layihələr mühüm rol oynaya bilər. Dilin ictimai diskursda aktiv istifadəsi onun prestijini yüksəldir və istifadə dairəsini genişləndirir [2, s.74].

Müasir texnologiyaların imkanlarından istifadə də bu sahədə effektiv vasitələrdən biridir. Rəqəmsal platformalar, mobil tətbiqlər və süni intellekt əsaslı sistemlər vasitəsilə azsaylı dillərin öyrənilməsi və yayılması daha əlçatan hala gətirilə bilər. Xüsusilə gənc nəslin rəqəmsal mühitə inteqrasiyası nəzərə alınaraq, dillərin bu platformalarda təmsil olunması onların yaşama şansını artırır. Lakin qeyd etmək lazımdır ki, texnoloji vasitələr yalnız dəstək rolunu oynayır və dilin real ünsiyyət mühitində istifadəsi əsas şərt olaraq qalır [10, s.3].

Digər mühüm istiqamət isə dövlət siyasəti və hüquqi mexanizmlərlə bağlıdır. Dövlət tərəfindən dilin qorunmasına yönəlmiş proqramların hazırlanması, azsaylı dillərin hüquqi statusunun müəyyənləşdirilməsi və onların inkişafı üçün maliyyə dəstəyinin

ayrılması dil təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bununla yanaşı, yerli icmaların təşəbbüsləri və sosial fəallıq da bu prosesdə həlledici əhəmiyyətə malikdir. Dil yalnız dövlət siyasəti ilə deyil, eyni zamanda onun daşıyıcıları tərəfindən gündəlik istifadədə yaşadılmalıdır. Beləliklə, təhlükədə olan dillərin sosial-linqvistik problemlərinin həlli çoxşaxəli yanaşma tələb edir və bu prosesdə təhsil, media, texnologiya və dövlət siyasətinin qarşılıqlı əlaqəsi əsas rol oynayır. Yalnız bu istiqamətlərin inteqrasiyası nəticəsində dillərin qorunması və gələcək nəsillərə ötürülməsi mümkün ola bilər.

**Təhlükədə olan dillərin qorunması və bərpası yolları.** Təhlükədə olan dillərin qorunması və bərpası müasir dilçilik və sosial elmlərin prioritet istiqamətlərindən biri hesab olunur. Bu proses yalnız linqvistik deyil, həm də mədəni, sosial və siyasi aspektləri əhatə edən kompleks yanaşma tələb edir. Dilin qorunması onun yalnız sənədləşdirilməsi ilə məhdudlaşmır; əsas məqsəd həmin dilin gündəlik ünsiyyət vasitəsi kimi yaşamasını təmin etməkdir. Bu baxımdan dilin aktiv istifadə mühitinin formalaşdırılması əsas şərt kimi çıxış edir. Təcrübə göstərir ki, dil yalnız ailə daxilində deyil, həm də təhsil, media və ictimai həyatın digər sahələrində istifadə edildikdə onun yaşama qabiliyyəti artır. Əks halda, dil passiv vəziyyətə keçərək tədricən yox olma təhlükəsi ilə üzləşir. Bu səbəbdən dilin qorunması siyasəti çoxşaxəli və davamlı strategiyalara əsaslanmalıdır [6, s.85].

Dil revitalizasiyası (bərpası) prosesində təhsil sisteminin rolu xüsusi əhəmiyyət kəsb edir. Ana dilində təhsilin təşkili və inkişafı dilin nəsildən-nəslə ötürülməsinin ən effektiv vasitələrindən biridir. Məktəblərdə və ali təhsil müəssisələrində azsaylı dillərin tədrisi onların sosial funksionallığını artırır və gənc nəslin bu dillərə marağını gücləndirir. Bununla yanaşı, dilin tədrisi üçün müasir metodların tətbiqi, dərslik və tədris materiallarının hazırlanması da mühüm rol oynayır. Təhsil sistemi vasitəsilə dilin yalnız öyrədilməsi deyil, həm də onun mədəni və tarixi dəyərlərinin aşılanması təmin olunmalıdır. Bu yanaşma dilin yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də mədəni identikliyin əsas elementi kimi qorunmasına xidmət edir [2, s.74].

Dil qorunması sahəsində mühüm istiqamətlərdən biri də media və kommunikasiya vasitələrinin imkanlarından istifadə olunmasıdır. Televiziya, radio, internet və sosial şəbəkələr azsaylı dillərin yayılması və populyarlaşması üçün effektiv platformalar hesab olunur. Xüsusilə rəqəmsal texnologiyaların inkişafı dillərin sənədləşdirilməsi və arxivləşdirilməsi üçün yeni imkanlar yaratmışdır. Elektron lüğətlər, onlayn tədris platformaları və mobil tətbiqlər vasitəsilə dillərin öyrənilməsi daha əlçatan olmuşdur. Süni intellekt əsaslı modellər isə az resurslu dillərin emalı və təhlili sahəsində yeni perspektivlər açır. Bununla belə, texnologiyanın rolu dəstək xarakterlidir və dilin real sosial mühitdə istifadəsi əsas şərt olaraq qalır. Dil yalnız virtual mühitdə deyil, canlı ünsiyyət prosesində də aktiv şəkildə istifadə olunmalıdır [10, s.4].

Beynəlxalq təcrübə göstərir ki, təhlükədə olan dillərin qorunması üçün dövlət siyasəti mühüm əhəmiyyət daşıyır. Dövlət tərəfindən qəbul olunan proqramlar və hüquqi mexanizmlər dillərin inkişafını stimullaşdırır və onların qorunması üçün institusional baza yaradır. Bu proqramlara dilin rəsmi statusunun müəyyənləşdirilməsi, maliyyə dəstəyi, elmi tədqiqatların təşviqi və ictimai layihələrin həyata keçirilməsi daxildir. Eyni zamanda, yerli icmaların fəallığı və təşəbbüsləri də bu prosesdə həlledici rol oynayır. Dil yalnız dövlət səviyyəsində deyil, həm də onun daşıyıcıları tərəfindən gündəlik həyatda istifadə olunduqda yaşaya bilər. İcma səviyyəsində təşkil olunan tədbirlər, mədəni layihələr və dil kursları dilin bərpası prosesinə müsbət təsir göstərir [7, s.6].

Dil qorunması strategiyalarının effektivliyi onların davamlı və sistemli şəkildə həyata keçirilməsindən asılıdır. Bu baxımdan kompleks yanaşma xüsusi əhəmiyyət kəsb edir. Təhsil, media, texnologiya və dövlət siyasəti bir-biri ilə əlaqəli şəkildə tətbiq edildikdə daha effektiv nəticələr əldə olunur. Həmçinin dilin qorunması yalnız keçmişin mirasını saxlamaq deyil, həm də gələcək nəsillər üçün yeni inkişaf imkanları yaratmaq deməkdir. Müasir dövrdə dil müxtəlifliyinin

qorunması bəşəriyyətin mədəni zənginliyinin saxlanılması baxımından strateji əhəmiyyət daşıyır və bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, dillərin bərpası mümkündür və düzgün yanaşma ilə onların yaşaması təmin edilə bilər

Dil qorunması və bərpası prosesinin effektiv həyata keçirilməsi üçün praktik mexanizmlərin sistemli şəkildə tətbiqi zəruridir. Bu baxımdan, müxtəlif istiqamətlər üzrə həyata keçirilən tədbirlərin koordinasiyası mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, yalnız bir sahədə aparılan fəaliyyətlər kifayət etmir; əksinə, təhsil, media, texnologiya və ictimai təşəbbüslər paralel şəkildə inkişaf etdirilməlidir. Xüsusilə yerli icmaların bu prosesə cəlb olunması dilin yaşama qabiliyyətini artırır. Dil daşıyıcılarının fəallığı və motivasiyası olmadan heç bir dövlət proqramı və ya texnoloji layihə uzunmüddətli nəticə verə bilməz. Buna görə də dil siyasəti yalnız yuxarıdan idarə olunan deyil, həm də aşağıdan – icma səviyyəsindən dəstəklənən model üzərində qurulmalıdır. Dilin iqtisadi və sosial dəyərinin artırılması da mühüm istiqamətlərdən biridir. Əgər dil iqtisadi fəaliyyətlərdə, turizm sektorunda, mədəni sənayelərdə və yerli biznes mühitində istifadə olunursa, onun yaşama ehtimalı artır. Dilin iqtisadi dəyərə çevrilməsi onun sosial statusunu yüksəldir və cəmiyyət tərəfindən qəbulunu gücləndirir. Bu isə öz növbəsində gənc nəslin həmin dili öyrənməyə və istifadə etməyə marağını artırır. Beləliklə, dilin qorunması yalnız mədəni deyil, həm də iqtisadi baxımdan stimullaşdırılmalıdır [6, s.86].

Təhlükədə olan dillərin qorunması yalnız linqvistik məsələ deyil, həm də mədəni müxtəlifliyin, milli kimliyin və tarixi irsin saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır. Müasir dövrdə bir çox ölkələr azsaylı dillərin yaşadılması məqsədilə kompleks sosial-linqvistik strategiyalar həyata keçirirlər. Bu istiqamətdə təhsil sistemində ana dilinin istifadəsi, media vasitələrinin genişləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və dövlət dəstəyinin gücləndirilməsi əsas prioritetlər hesab olunur. Xüsusilə rəqəmsal platformalarda dillərin təmsil olunması onların müasir informasiya məkanında mövqeyini qorumağa imkan yaradır. Bununla yanaşı, yerli icmaların təşəbbüsləri və iqtisadi layihələr də dilin gündəlik ünsiyyət vasitəsi kimi yaşamasına mühüm təsir göstərir. Təhlükədə olan dillərin qorunması və bərpası istiqamətində həyata keçirilən əsas tədbirlər və onların gözlənilən nəticələri cədvəl 3-də təqdim edilmişdir.

**Cədvəl 3.** Təhlükədə olan dillərin qorunması və bərpası yolları.

| İstiqamət | Məqsəd | Tətbiq vasitələri | Gözlənilən nəticə |
|---|---|---|---|
| Təhsil | Dilin nəsildən-nəslə ötürülməsi | Ana dilində tədris, dərsliklər | Dilin davamlılığının təmin olunması |
| Media | Dilin yayılması və populyarlaşdırılması | TV, radio, sosial media | Dilin sosial nüfuzunun artması |
| Rəqəmsal texnologiyalar | Dilin sənədləşdirilməsi və inkişafı | Mobil tətbiqlər, AI modellər | Dil resurslarının zənginləşməsi |
| Dövlət siyasəti | Hüquqi və institusional dəstək | Qanunlar, proqramlar, maliyyə dəstəyi | Dil təhlükəsizliyinin təmin olunması |
| İcma təşəbbüsləri | Dilin gündəlik istifadəsi | Dil kursları, mədəni tədbirlər | Dilin canlılığının qorunması |
| İqtisadi inteqrasiya | Dilin iqtisadi dəyərinin artırılması | Turizm, yerli biznes, mədəni layihələr | Dilin prestijinin yüksəlməsi |

Beləliklə, təhlükədə olan dillərin qorunması və bərpası yalnız nəzəri yanaşmalarla deyil, həm də praktik tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ilə mümkün olur. Bu prosesdə müxtəlif sahələrin qarşılıqlı əlaqəsi və koordinasiyası əsas rol oynayır. Yalnız bu halda dillərin gələcək nəsillərə ötürülməsi və onların davamlı inkişafı təmin edilə bilər.

**Nəticə**

Aparılmış araşdırma göstərir ki, təhlükədə olan dillər problemi müasir dövrdə qloballaşmanın təsiri altında daha da aktuallaşmış və çoxşaxəli xarakter almışdır. Dillərin yox olması yalnız dilçilik məsələsi deyil, eyni zamanda mədəni irsin itirilməsi, milli identikliyin zəifləməsi və bəşəriyyətin ümumi intellektual potensialının azalması ilə bağlı ciddi problemdir. Bu baxımdan dil müxtəlifliyinin qorunması qlobal miqyasda mühüm vəzifə kimi çıxış edir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, dillərin yaşaması ilk növbədə onların gündəlik istifadəsi və nəsillər arasında ötürülməsi ilə birbaşa bağlıdır. Əgər dil sosial həyatın müxtəlif sahələrində – ailədə, təhsildə, mediada və ictimai münasibətlərdə aktiv şəkildə istifadə olunursa, onun davamlılığı təmin olunur. Əks halda, dil tədricən passivləşir və yox olmaq təhlükəsi ilə üzləşir.

Bununla yanaşı, təhlükədə olan dillərin qorunması və bərpası kompleks yanaşma tələb edir. Bu prosesdə təhsil sisteminin rolu, dövlət siyasətinin dəstəyi, rəqəmsal texnologiyaların imkanları və ictimai təşəbbüslərin fəallığı mühüm əhəmiyyət kəsb edir. Xüsusilə müasir texnologiyalar az resurslu dillərin sənədləşdirilməsi və yayılması üçün yeni perspektivlər açır, lakin dilin yaşaması üçün əsas şərt onun real ünsiyyət mühitində istifadə olunmasıdır.

Nəticə etibarilə, təhlükədə olan dillərin qorunması yalnız keçmişin mirasını saxlamaq deyil, həm də gələcək nəsillər üçün mədəni və intellektual zənginliyin təmin olunması deməkdir. Bu baxımdan dil müxtəlifliyinin qorunması davamlı inkişafın mühüm komponentlərindən biri kimi qiymətləndirilməli və bu istiqamətdə sistemli və davamlı tədbirlər həyata keçirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Cəfərov N. Qloballaşma şəraitində Azərbaycan dilinin inkişaf tendensiyaları. Filologiya məsələləri, 2019;6:12–18.
2. Əliyeva L. Qloballaşma və dil itkisi problemi: nəzəri yanaşmalar. Dilçilik araşdırmaları, 2022;70–78.
3. Hüseynov F. Dil müxtəlifliyinin qorunması və sosial-linqvistik problemlər. Filologiya məsələləri, 2021;4:55–61.
4. Kazımov Q. Dil və qloballaşma: müasir çağırışlar və perspektivlər. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, 2018;3:40–46.
5. Amano T. Language barriers in conservation: consequences and solutions. Trends in Ecology & Evolution, 2024;1–10.
6. Bromham L. Language endangerment: a multidimensional analysis of risk factors. Journal of Language Evolution, 2020;5(1):75–91.
7. Chaika O. Revitalising endangered languages: challenges, successes and cultural implications. Futurity Social Sciences Journal, 2024;1–10.
8. Endangered Languages Project. Endangered Languages Database. 2022, 500 s.
9. Ethnologue Languages of the World. 26th ed. Dallas: SIL International, 2023, 1200 s.
10. Parankusham K. LakotaBERT: transformer-based model for low-resource endangered language revitalization. Procedia Computer Science, 2025;1–8.
11. Romaine S. Linguistic diversity, sustainability and globalisation. Language Sciences, 2015;51:1–9.
12. Tsuchida S. Endangered Languages and Their Documentation. Tokyo: University of Tokyo Press, 1998, 180 s.
13. UNESCO Interactive Atlas of the World's Languages in Danger. Paris: UNESCO, 2010, 200 s.
14. UNESCO Language Vitality and Endangerment. Paris: UNESCO, 2003, 25 s.
15. Wiltshire B. Understanding how language revitalisation works: a realist review. Journal of Multilingual and Multicultural Development, 2024;1–15.
16. Wurm S.A. Atlas of the World's Languages in Danger of Disappearing. Paris: UNESCO, 1996, 341 s.

**Gulgun Ashraf YUSIFOVA**
Azerbaijan University of Languages, Department of General Linguistics, Lecturer

## ENDANGERED LANGUAGES: SOCIOLINGUISTIC PROBLEMS AND PRESERVATION STRATEGIES IN THE CONTEXT OF GLOBALIZATION

**Summary**

In the context of modern globalization, the preservation of languages and maintenance of linguistic diversity has become one of the most актуal issues in linguistic science. Endangered languages are not only a means of communication but also an important carrier of cultural heritage, national identity, and historical memory. This article provides a comprehensive analysis of the theoretical foundations of endangered languages, their sociolinguistic problems, and preservation strategies. The study explains in detail the main factors contributing to language loss, including globalization, urbanization, social status differences, and the weakening of intergenerational transmission. At the same time, the cultural and social consequences of decreasing linguistic diversity are identified. Based on UNESCO's classification of the degree of language endangerment, the article examines different levels of risk and emphasizes their significance for language policy. In addition, modern approaches to the preservation and revitalization of endangered languages—such as educational policies, digital technologies, media tools, and community initiatives—are systematically analyzed. Special attention is given to the role of artificial intelligence and digital platforms in supporting low-resource languages. The study concludes that language preservation is possible not only through scientific approaches but also through the integration of state policy, public support, and technological opportunities. In this regard, the protection of linguistic diversity is considered an important strategic direction for ensuring global cultural sustainability.

**Keywords:** endangered languages, language loss, linguistic diversity.

**Гюльгюн Ашраф ЮСИФОВА**
Азербайджанский университет языков, Кафедра общего языкознания, преподаватель

## ЯЗЫКИ ПОД УГРОЗОЙ ИСЧЕЗНОВЕНИЯ: СОЦИОЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ И СТРАТЕГИИ СОХРАНЕНИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**Резюме**

В условиях современной глобализации сохранение языков и поддержание языкового разнообразия становится одной из наиболее актуальных проблем лингвистической науки. Языки, находящиеся под угрозой исчезновения, являются не только средством коммуникации, но и важным носителем культурного наследия, национальной идентичности и исторической памяти. В статье комплексно анализируются теоретические основы языков под угрозой исчезновения, их социолингвистические проблемы и пути сохранения. В исследовании подробно рассматриваются основные факторы, способствующие утрате языков, такие как глобализация, урбанизация, различия в социальном статусе и ослабление межпоколенной передачи языка. Также определяются культурные и социальные последствия сокращения языкового разнообразия. На основе классификации ЮНЕСКО по степени жизнеспособности языков анализируются различные уровни угрозы и подчеркивается их значение для языковой политики. Кроме того, системно рассматриваются современные подходы к сохранению и восстановлению языков, включая образовательную политику, цифровые технологии, средства массовой информации и инициативы местных сообществ. Особое внимание уделяется роли искусственного интеллекта и цифровых платформ в поддержке малоресурсных языков. В результате исследования установлено, что сохранение языков возможно не только

посредством научных подходов, но и через интеграцию государственной политики, общественной поддержки и технологических возможностей. В этом контексте сохранение языкового разнообразия рассматривается как важное стратегическое направление обеспечения глобальной культурной устойчивости.

**Ключевые слова:** языки под угрозой исчезновения, утрата языка, языковое разнообразие.

**Daxil olub:** 17.04.2026